# Ümumtəhsil məktəblərinin I və II siniflərində leksik nöqsanların aradan qaldırılması yolları

**Fidan Məhəmməd qızı Abdullayeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** abdullayeva.fidn@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. Q.G. Qəmbərova,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** söz, sinonim, tədris, nitq, omonim, leksikologiya, şagird, antonim
**Ключевые слова:** слово, синоним, обучение, речь, омоним, лексикология, ученик, антоним
**Key words:** word, synonym, learning, speech, homonym, lexicology, student, antonym

Azərbaycan dilinin tədrisində dilçiliyin digər bölmələri kimi, leksikologiyanın tədrisi də xüsusi əhəmiyyət kəsb edir. Çünki leksikologiyanın tədqiqat obyekti sözdür. Söz isə tədrisin əsasını təşkil edir. Leksikanın tədrisi haqqında Həsən Balıyevin "Ana dilinin tədrisi" adlı kitabda belə qeyd olunur: "Leksikanın tədrisi şagirdlərə Azərbaycan dilinin söz ehtiyatı ilə, onu zənginləşdirən əsas mənbələrlə, lüğət tərkibindəki söz qrupları, onların mənaları, nitqdə işlədilməsi imkanları və s. ilə tanış olmağa imkan verir" (1, s. 175). Lakin uzun müddət dil tədrisində leksikologiya müstəqil bir bölmə kimi tədqiq olunmamış, çox vaxt fonetika və qrammatikanın tərkibində tədris olunmuşdur. Elə bu səbəbdən də Azərbaycan dilinin tədrisi metodikasına aid kitablarda leksikologiyanın tədrisi ayrıca bölmə kimi təqdim olunmamışdır.

Leksikologiya müstəqil bir bölmə kimi 1992-2002-ci illərdən etibarən V siniflərdə tədris olunmağa başlamışdır. XX əsrin 50-ci illərindən başlayaraq, S.Cəfərovun, A. Qurbanovun, N. Xuduyevin, B.Xəlilovun yazdıqları dərslik və monoqrafiyalarında leksikanın sistemli öyrənilməsinə başlanılmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, leksikanın tədqiqat obyekti söz olduğu üçün onun tədrisində də əsas məfhum sayılır. Bu haqda S. Cəfərov "Müasir Azərbaycan dili" dərsliyində qeyd edir ki, leksikologiyanın əsas məqsədi sözün mahiyyətini və tərkibini, sözlərin mənasını və çoxmənalılıq problemlərini aydınlaşdırmaqdan, sözün inkişaf qanunauyğunluqlarını dəqiqləşdirməkdən və sözlərin mənaca qruplarını müəyyənləşdirməkdən ibarətdir .

Görkəmli dilçi alimin də fikirlərindən aydın göründüyü kimi leksikologiyada birbaşa söz təddiq olunur. Elə buna görə də belə demək mümkündürsə, şagird məktəbə qədəm qoyduğu gündən leksikanın tədrisi başlanır. II, III və IV siniflərdə leksik anlayışlar ayrı-ayrı başlıqlar altında tədris olunur. V sinifdən etibarən isə leksikologiya sistemli şəkildə tədris olunmağa başlayır.

Leksikologiyanın əsasında söz dayandığı üçün o həm özündən əvvəlki fonetika ilə, həm də özündən sonra tədris olunan sintaksis ilə əlaqəlidir. Belə ki, tədris zamanı müəllim şagirdlərə səslər sözlərin, sözlər isə cümlələrin yaranmasında əsas "material" olduğunu başa salmalıdır. Leksikanın düzgün tədrisi həmçinin şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsinə səbəb ola bilər. Çünki leksikologiyanın tərkibində sözün həqiqi və məcazi mənası, leksik və qrammatik mənası, təkmənalılığı və çoxmənalılığı, omonim, sinonim, antonimliyi, həmçinin, neologizmlər və arxaizmlər, frazeoloji birləşmələr tədris olunur. Bunlar isə öz növbəsində lüğət ehtiyatını artıran başlıca amillərdir. Hər zaman olduğu kimi burada ən böyük iş müəllimin

üzərinə düşür. Belə ki, ümumən ana dilini tədris edən müəllimin, eləcə də leksikanın tədrisi ilə məşğul olan müəllimin nitqi leksik nöqsanlardan uzaq, dialekt və şivələrdən təmiz, örnək bir nitq olmalıdır.

K.Mikayılovun tərtib etdiyi “Azərbaycan dilindən leksikanın tədris” adlı kitabında leksik nöqsanlar belə izah olunur: “Leksik nöqsanlar dedikdə mətnə müvafiq gəlməyən, ədəbi dilə xas olmayan söz və ifadələrin, nitqdə yeknəsəklik törədən, onu zibilləyən sözlərin işlədilməsi nəzərdə tutulur.” (4, s. 12).

Araşdırmalar göstərir ki, I və II siniflərdə təhsil alan şagirdlərin əksəriyyəti sözün mənasını bilmədikləri üçün leksik səhvlərə yol verirlər. Aparılan araşdırmaların nəticəsindən məlum olur ki, şagirdlərin əsas leksik səhvləri aşağıdakılardan ibarətdir:

1. Sözün mənasını bilməmək. Şagirdlərlə aparılan təcrübədən məlum olmuşdur ki, onlar xəzan-xəzəl, fənn-fənd və s. sözlərin mənasını bilmir və onları bir-birilə qarışdırırlar.Əlbəttə ki, bu problemin əsas həlli yolu həmin sözləri ayrı-ayrılıqda cümlədə işlətməkdir. Bu zaman sözlərin mənası şagirdlərə aydın olar.

2. Sözün çoxmənalılığını başa düşməmək. Müəllim şagirdə izah etməlidir ki, sözün çoxmənalılığı, ancaq müəyyən mətn içərisində bu və ya digər sözlərlə əlaqəyə girməsi nəticəsində meydana çıxır. Şagirdlər çoxmənalılığı başa düşdükdə müəllim onlara içərisində eyni söz olan bir neçə cümlə verir. Bu zaman şagirdlər fərqli cümlələrin tərkibində olan eyni sözlərin fərqli mənalarda işləndiyini dərk edirlər. Bunu qruplarla iş zamanı tətbiq etmək daha səmərəli nəticə verir. Məsələn, baş, ayaq, göz sözləri çoxmənalı sözlərdir. Bunları uşağa belə izah etmək lazımdır: adamın başı-kəndin başı. “Kəndin başı” dedikdə onun giriş hissəsi nəzərdə tutulur. Çünki insanın başı da bütün orqanlardan əvvəl gəlir.

3. Sözlərin yersiz təkrarına yol verməк.

4. Dilimizdə qarşılığı olmasına baxmayaraq sözlərin rus dilində işlədilməsi (vilka, pol, xolodelnik və s.). Qeyd olunanlardan da göründüyü kimi bu cür leksik nöqsanların olmaması və aradan qaldırılması üçün tədris zamanı şagirdlərə mükəmməl izahlar lazımdır.

Bir çox hallarda şagirdlər alınma sözləri təyin etməkdə çətinlik çəkirlər. Çünki az öncə də qeyd etdiyimiz kimi, bu sözlər dilin lüğət fonduna daxil olmuşdur və onları bəzən milli sözlərdən seçmək şagirdlərə çətinlik törədir. Tədris prosesində bu problemlərin olmaması üçün alınma sözlərə xas olan əsas əlamətlər şagirdlərə dəqiq izah edilməlidir.

Tarixi inkişaf nəticəsində dildə bir qrup sözlər köhnələrək öz işləkliyini itirir, bir qrup sözlər isə əksinə, ictimai-tarixi tərəqqi nəticəsində dilə daxil olur. Belə sözlər tədris prosesində arxaizmlər və neologizmlər şəklində öyrənilir. Bu qrup sözlərin tədrisində şagirdləri həm arxaik, həm də müasir anlayışları özündə daşıyan paralel cümlələr üzərində işlətməklə, həm köhnəlmiş sözləri izah etmək, həm də neologizmlər üçün zəmin yaratmaq olar. Məsələn: yüzbaşı oğrunun cəzasını verdi. Polis oğrunun cəzasını verdi.

Neologizmlərin tədrisi həm köhnəlmiş sözlərin, həm də terminlərin tədrisi ilə əlaqəli qurulmalıdır. Çünki neologizmlər və terminlər arasında ciddi sərhəd qoymaq mümkün deyil. Terminlərin tədrisində onların ayrı-ayrı elm sahələrinə aid olduğu nəzərə alınmaqla, təkmənalılıq xüsusiyyətləri şagirdlərin diqqətinə çatdırılmalıdır. Həmçinin müəllim tədris prosesində dilimizdə söz-termin (feil, say) və xalis terminlər (fonetika, kurikulum) olduğunu da müqayisəli şəkildə şagirdə izah etməlidir.

Nəhayət, leksikanın tədrisində sonuncu leksik anlayış frazeoloji birləşmələrdir. Frazeoloji birləşmələrin tədrisində öncə sözlərin məcazi mənasını xatırlamaq lazım gəlir. Bu sabit birləşmələrin tədrisində əsas problem doğuran məsələ birləşmənin sonuncu felinin həqiqi və ya məcazi mənada işlənməsidir. Bu problem daha çox cümlə təhlillərində özünü göstərir. Belə

ki, təhlil zamanı bəzi şagirdlər birləşmənin felini həqiqi mənada götürüb onları parçalayaraq təhlil edirlər. Məsələn: işçi qrup bu gün yola düşür. Onun illərdir saxladığı məktub "heç özü də bilmədən cibindən yola düşmüşdür. Bu cümlələrin hər ikisində də" yola düşmək ifadəsi var. Lakin birinci cümlədə məcazi, ikinci cümlədə isə həqiqi mənada işlənmişdir. Təhlil zamanı diqqətsizlik edən şagird birinci cümlədə də "yola düşmək" ifadəsini həqiqi mənada götürüb təhlil etsə, əlbəttə ki, səhv etmiş olar. Buna görə müəllim bu məsələdə də şagirdlərə dəqiq izahat verməlidir.

Biz yuxarıda leksikanın tədrisinə qısa da olsa, nəzər salmış olduq və eyni zamanda tədris prosesində hansı problemlərin yarandığını və yarana biləcəyini də qeyd etdik. Bu kimi problemlərin olmaması üçün müəllimlər tədris prosesində diqqətli olmalıdırlar.

**Məqalənin aktuallığı.** I və I siniflərdə Azərbaycan dili fənninin tədrisi zamanı bir sıra leksik nöqsanlar yaranır ki, bu problemlərin aradan qaldırılması olduqca zəruridir. Aktuallıq da məhz məqalənin həmin problemlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsinə həsr edilməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** I və I siniflərdə Azərbaycan dili fənninin tədrisi zamanı ortaya çıxan leksik nöqsanlar zamanı yaranan problemlərin həll yollarının müəyyənləşdirilməsi üçün tanınmış dilçi alimlərin tövsiyələri verilir və bu sahədə aparılmış ayrı-ayrı tədqiqatların nəticələri konkret nümunələrlə göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, Təhsil, 2003, 310 s.
2. Balıyev H. B. Ana dilinin tədrisi. Bakı: "Qismət", 2014, 380 s.
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). ADPU-nun nəşri. Bakı, 2016, 403 s.
4. Mikayılov K. Azərbaycan dilindən leksikanın tədrisi. Bakı: Elm, 1999, 333 s.
5. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2016.
6. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili (1-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2016.

**Ф.М. Абдуллаева**

## Способы устранения лексических недостатков в первом и втором классах общеобразовательной школы

## Резюме

В тексте рассказывается о проблемах и решений этих проблем возникикавщих во время обучении лексики. В статье были отмечены вопросы обучения лексики. Какие проблемы возникают или могут возникнуть в ходе обучения. Автор своими примерами и объяснениями показывает как можно решить эти проблемы.

Указывается что какая бы ни была проблема, она имеет свое решение. В то же время

эти сведения очень важны для учеников в процессе обучения. В решении проблем важно участие и автора статьи и учеников.

**F. M. Abdullayeva**

## Ways to eliminate lexical deficiencies in I and II grades of secondary scholls

### Summary

Teaching of lexicon was briefly mentioned in the article. Types of problems during teaching that occurred and may possibly occur in the future were noted as well. The author demonstrates the solution ways of these problems by means of examples and clarifications. Regardless of the problem, there is an absolute solution for it. In the article, these solutions were indicated in detail.

Simultaneously, provided data are of great importance for the students to fathom the lesson easily. Both teachers and students need to perform their responsibilities to the fullest extent so as to overcome obstacles.

**Redaksiyaya daxil olub:** 19.03.2021